# Qəhrəmanların ölümsüzlüyünə inandıran "Babək"



**Yadelli işğalçılara qarşı mübarizə aparan böyük sərkərdə, siyasi xadim Babəkin qəhrəmanlığı bir ekran əsərinin mövzusuna çevriləndə 1979-cu il idi. Böyük və gərgin zəhmətlə aparılan çəkilişlər aylarla davam etdi...**

## Ən bahalı film...

"Babək" filmi "Mosfilm" və "Azərbaycanfilm" kinostudiyalarının birgə istehsalıdır. Azərbaycan SSR-in ən bahalı bu filminin büdcəsi 1.650.000 rubl təşkil edib. Vəsaitin 650 min rublu SSRİ Dövlət Kinematoqrafiya Komitəsi, 1 milyon rublu isə Azərbaycan tərəfindən ayrılıb.

Əsərə quruluş vermək kinorejissor Həsən Seyidbəyliyə tapşırılıb. Tarixi film çəkmək təcrübəsi olan kinorejissor böyük həvəslə işə başlayıb. Fotoproblardan, kinoproblardan, sınaq çəkilişlərindən sonra rol bölgüsü aparıb. Ancaq Bədii Şuranın təsdiqindən sonra, filmin çəkilişi ərəfəsində bəlli olmayan səbəblərlə Həsən Seyidbəyli sənət həyatında ilk dəfə qadağa ilə qarşılaşıb. Filmin çəkiliş prosesi ondan alınaraq kinorejissor Eldar Quliyevə həvalə edilib.

Ənvər Məmmədxanlının ssenarisi əsasında çəkilən filmin quruluşçu operatoru Rasim İsmayılov, bəstəkarı Polad Bülbüloğlu, dirijoru Rauf Abdullayev, direktoru Tələt Rəhmənovdur. Rollarda Rasim Balayev (Babək), Həsənağa Turabov (Afşin), Amaliya Pənahova (Zərnisə), Tamara Yandiyeva (Pərvin), Şahmar Ələkbərov (Cavidan), Məmməd Verdiyev (Buğday), Hamid Azayev (Əzrək), Ənvər Həsənov (Tərxan), Hamlet Xanızadə (Xəlifə Mötəsim), Hacımurad Yegizarov (Xəlifə Məmun), Səməndər Rzayev (İbn Bəis), Hacı Xəlilov (İbn Boyat), Ramiz Məlikov (Səhl ibn Sumbat), Eldəniz Rəsulov (Azin), Muxtar Maniyev (İbn Muaz), Əliabbas Qədirov (Fəzl), Bahadur Əliyev (Divdad), Yaşar Məmmədov (Əbu İmran), Gündüz Abbasov (Pərvinin atası) və başqaları çəkiliblər. Kadrarxası mətn aktyor Əli Zeynalovun səsi ilə təqdim olunub.

## Tamaşaçını uzaq tariximizin müasirinə çevirən film

Əsas süjet xəttini VIII-IX əsrlərdə Azərbaycanda xalq kütlələrinə, Xürrəmilərin azadlıq hərəkatına başçılıq edən Babəkin qəhrəmanlığı, feodal zülmündən əziyyət çəkən xalqı üçün etdiyi idiglik, fədakarlıq təşkil edən əsəri ekranlaşdırmaq geniş hazırlıq tələb edirdi. İlk növbədə, həmin dövr dərindən öyrənilməli idi. Yadellilər tərəfindən əsir götürülən insanların iztirablarını, istilaçı döyüşçülərin qəddarlığı, uzaq keçmişdə baş verən hadisələrə tamaşaçını inandırmaq elə də asan deyil...

Çəkilişləri mürəkkəbləşdirən bir mühüm məqam isə kütləvi səhnələrin çoxluğu idi. Əsas qəhrəmanlarla yanaşı, bu səhnələrdə iştirak edən insanların bir yerə yığılması, dövrə uyğun geyindirilməsi lazım gəlirdi. Əlbisə və rekvizitlərin hazırlanmasına başlanılıb. Azərbaycanla bərabər, Rusiya, Gürcüstan və Özbəkistanda 16 fabrik film üçün 1500 dəstdən çox geyim tikib. Zavodların əksəriyyəti təmənnasız qılınc, qalxan və digər lazımi silahları hazırlayaraq yaradıcı heyətə bağışlayıb.

Döyüş səhnələrinin çəkilişləri və təbiət mənzərələri Naxçıvanda, Bakının Fatmayı kəndində, pavilyon çəkilişləri isə kinostudiyada aparılıb. Filmdə natura çəkilişləri üstünlük təşkil edib.

Filmin Bəzz qalası çəkilişləri Naxçıvanla Culfa arasında aparılıb. Filmdə görünən Bəzz qalası dekorasiya idi. Quruluşçu rəssam Mayis Ağabəyov tərəfindən bu qala taxtadan elə ustalıqla hazırlanıb ki, dekorasiya olduğu hiss edilmir.

"Babək" filmi yaradıcı heyətin böyük zəhməti hesabına ərsəyə gəlib. Beş mindən artıq adam çəkilişlərdə iştirak edib. Moskvadan "Mosfilm"in "Kavaler polku"ndan 170 atlı gətirilib. Naxçıvandakı sərhəd qoşunlarının hərbçiləri və yerli sakinlər çəkilişlərə cəlb ediliblər. Ancaq ətraf kəndlərdən xeyli sakin toplaşsa da, döyüş kadrlarının çəkilişləri zamanı dörd-beş min insanı yığmaq problemə çevrilib. Üstəlik, "Babək" filminin çəkilişləri gedərkən Naxçıvanda aparılanda üzüm yığımının qızğın vaxtları idi. Kütləvi səhnələrə yerli əhalini cəlb etmək üçün Naxçıvan rəhbərliyinin yardımı lazım idi. Üzüm yığımına görə camaatı tam səfərbər etmək elə yuxarılar üçün də müşkül məsələyə çevrilib. O zaman Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev Naxçıvan rəhbərliyinə "Babək" filmi üçün lazımi şərait yaratmağı tapşırıb. Bununla da problem həll olunub...

## Uzun və yorucu çəkilişlər...

Çəkilişlər zamanı bədbəxt hadisələr, atdan yıxılanlar az olmayıb. Hətta "süvarilərdən" biri atla birlikdə dərəyə yuvarlanıb, hər iki ayağı sınıb. Bəzən aktyorlar qılıncı səhv vurduğu üçün yaralananlar da çox olub. Döyüşçü geyimləri olduqca ağır idi. Qızmar günəş altında mis dəbilqə ilə hərəkət etmək dözüm, iradə, fədakarlıq tələb edirdi. Dəbilqələr istidən qızır, çəkilişlər zamanı huşunu itirənlər olurdu. Ancaq yalnız filmin yaradıcı heyəti deyil, elə yerli sakinlər də əziyyətlərə qatlaşaraq filmin uğurlu alınmasına əllərindən gələni əsirgəmirdilər.

Uzaq keçmişin qanlı, gərgin və kəskin hadisələri iki seriyaya sığdırılan "Babək" filmi 1-ci kateqoriya alıb. Film barədə resenziyalar yazılıb. Onlardan birində qeyd olunub: "Filmin emosional təsir gücü tamaşaçını heyrətləndirməklə yanaşı, həm də təəccübləndirir. Bir çox kadrlar, demək olar ki, Babəkin azadlıq ideyasına, insan sevgisinə köklənib. Lakonik, məntiqli dialoq və monoloqların cəmində, dövr hadisələrinin mahiyyətini cilalayan kadrların sferasında Babəkin ideyası, həyat amalı hiss olunur, diktə edilir. Babək obrazı ssenariyə uyğun olaraq tematik şəkildə yalnız tarixi qəhrəman kimi bütləşdirilməyib. Eyni zamanda o, kasıb, əliyalın, acınacaqlı durumda olan insanların köməyinə çatıb onların halına yanan, dərdinə şərik çıxan, xilas yolu axtaran cəmiyyətin bir üzvü, xalqın qəhrəman oğlu kimi xarakterizə edilib".

"Babək"in bir il ərzində 35 milyon tamaşaçısı olub. Film 60-a yaxın ölkə tərəfindən alınıb.

Filmin ekranlara çıxarılmasından uzun illər ötür. Bu gün də "Babək" sevilə-sevilə baxılan, gənclərə vətənpərvərlik hissləri aşılayan ekran əsərlərimizdən biri kimi dəyərləndirilir. Filmin gerçək qəhrəmanının - Babəkin söylədiyi mübarizəyə, qələbəyə səsləyən sözlər tamaşaçının qəlbini riqqətə gətirir. Xüsusilə onun son sözləri - "Mən həmişə səninləyəm, Azərbaycanım!" deməsi izləyiciləri qəhrəmanların ölümsüzlüyünə inandırır.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 29 avqust.- S.6.